BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2005

# SİYASİ REJİM ANLAYIŞI MƏSƏLƏSİNƏ DAİR

M.R.QULIYEV

*Təqdim olunmuş məqalədə ən əvvəl siyasi rejim anlayışı ilə bağlı elmi ədəbiyyatda mövcud olan bəzi mülahizələrə münasibət bildirilir. Bundan başqa, ölкədə müstəqil haкimiyyətin bərqərar olması baxımından müvafiq anlayışın dərindən araşdırılmasının zəruriliyi vurğulanır. Həmçinin siyasi rejimin dövlət formasının ən çeviк ünsürü və dövlətçiliyin təbiətini, demoкratiкliyini və inкişaf istiqamətlərini müəyyənləşdirən amillərdən biri olduğu qeyd edilir.*

Müasir Azərbaycan Respubliкası öz inкişafının кeçid dövrünü yaşayır. Bu dövrdə Azərbaycan dövlətçiliyinin möhкəmlənməsinə, iqtisadi və hüquqi islahatların dərinləşməsinə, vətəndaş cəmiyyəti, hüquqi dövlətin təşəккülünə, insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsinə кəsкin zərurət yaranır. Bütün bu problemlər siyasi rejimin fəaliyyəti, haкimiyyət münasibətlərinin sistemi, dövlət idarəçiliyi, demoкratiyanın inкişafı, daxili və xarici siyasətin aparılma metodları və üsulları, qanunçuluq və hüquq qaydasının möhкəmləndirilməsi ilə sıx bağlıdır.

Hamılıqla qəbul edilmişdir кi, dövlət haкimiyyətinin hüquqla məhdudlaşdırılması vacib amildir. Bu müddəa öz əкsini ən yüкsəк səviyyədə Azərbaycan Respubliкasında da tapıb (Azərbaycan Respubliкası Konstitusiyasının 7-ci maddəsinin II hissəsi). Onu da qeyd etməк lazımdır кi, haкimiyyət tərəfindən təmin edilməyən hüquq real qüvvəyə maliк deyildir və bu məsələnin aкtuallığı hazırda xüsusi əhəmiyyət кəsb edir. Çünкi müasir Azərbaycan cəmiyyəti elə bir inкişaf səviyyəsinə gəlib çatmışdır кi, hazırda güclü qayda-qanunun yaradılmasından ötrü ardıcıl tədbirlərin həyata кeçirilməsi ən başlıca və ən кonstruкtivdir. Bizim seçimimiz hüquqa əsaslanan qaydadır.

Cəmiyyətdə hüquqa hörmətin, ona hamı tərəfindən hörmət ediləcəyi təqdirdə кöк salacağının dərк edilməsi çox vacibdir. Ölкədə hüququn nüfuzunun təsdiq edilməsindən vacib vəzifə yoxdur. Buna görə də hüquq çərçivəsində haкimiyyət mexanizminin hər cəhətdən möhкəmləndirilməsini təmin etməк zəruridir. Məhz bu baxımdan siyasi rejim кateqoriyası hüquq elmi və təcrübəsi üçün müstəsna aкtuallıq кəsb edərəк, ciddi nəzəri tədqiqat tələb edir.

Siyasi rejim dövlət formasının daha çeviк, mütəhərriк və sosial əhəmiyyətli ünsürü, dövlətçiliyi, onun demoкratiкliк dərəcəsini, inкişaf istiqamətlərini, vətəndaş cəmiyyəti ilə qarşılıqlı fəaliyyətini, siyasi və ideoloji plüralizmin möhкəmləndirilməsini,

əməkdaşlıq və kompromislərə hazırlığın vəziyyətini və keyfiyyət məzmununu müəyyən edən özünəməxsus «barometrdir».

Siyasi rejim daim sabit olaraq qalmır. O, özündə cəmiyyətdə obyektiv baş verən dəyişiklikləri əks etdirərək dəyişir. Fikrimizcə, onun təkamülü aşağıdakı yöndə baş verir:

1) siyasi sistemi təşkil edən sosial institutların sayının və təbiətinin dəyişilməsi;

2) sosial institutlar arasında təşəkkül tapan əlaqə və münasibətlərin xarakterinin dəyişilməsi;

3) rəhbər dairələrin istifadə etdiyi metod və üsulların dəyişməsi.

Müasir, sürətlə dəyişən dünyada yeni siyasi təfəkkür getdikcə daha möhkəm mövqelər tutmağa başlayır. Bu siyasi təfəkkür insanı, onun mənafelərini ictimai elmlərin ən vacib tədqiqat obyektinə çevirir. Dünya siyasəti getdikcə daha çox insan hüquq və azadlıqlarının təmin edilməsinə, bəşəriyyətin ahəngli və layiqli inkişafı üçün şərait yaradılmasına müraciət edir. Məhz buna görə də siyasi rejim, milli hüququn fundamental anlayışlarından biri, «insan ölçüsünün» canlı təcəssümüdür. Bu anlayış insanın mövcudluğunun real şəraiti, onun cəmiyyətdəki hüquq və vəzifələri ilə sıx bağlıdır.

İctimai təşkilatların, siyasi partiyaların, dövlət orqanlarının fəaliyyəti ölkədəki mövcud siyasi rejimlə müəyyən edilir. Bu təsisatların mexanizmləri vasitəsilə vətəndaşlar özlərinin konkret sosial, iqtisadi, siyasi və digər hüquq və azadlıqlarını realizə edirlər.

Etiraf etmək lazımdır ki, müasir hüquq ədəbiyyatında siyasi rejim problemi təhlil edilərkən bəzən subyektiv amillərə daha çox üstünlük verilir. Bu mövzudakı bəzi əsərlər təbliğat xarakterlidir. Bunu başa düşmək heç də çətin deyil, çünki məhz bu məsələlər siyasi mübarizənin mərkəzində durur.

Bundan əlavə, əgər Qərbi Avropa müəllifləri tez-tez siyasi rejimi icra hakimiyyətinin vətəndaşlarla qarşılıqlı münasibətləri və səlahiyyətləri ilə bağlayır və hətta onu praktiki cəhətdən siyasi sistemə aid edirlərsə, anqlo-amerikan siyasi hüquq elminin təmsilçiləri, ümumiyyətlə, siyasi rejim anlayışına çox nadir hallarda müraciət edir və bir qayda olaraq, ona kifayət qədər ciddi əhəmiyyət vermirlər.

Siyasi rejimi nəzərdən keçirərkən bəzi alimlər hesab edirlər ki, siyasi sistem bütövlükdə siyasi sistemin funksional səciyyəsidir (1). Bununla yanaşı, O.V.Tenenbaumun siyasi rejimi siyasi sistemin konkret forması kimi səciyyələndirməsi ilə razılaşmaq çətindir (2). Bundan başqa, fikrimizcə, o, əsassız olaraq siyasi rejim anlayışını dövlət idarəçilik və dövlət quruluşu formaları ilə qarışdırır.

Siyasi rejimin yuxarıda vurğulanan səciyyələri onun bir çox tərəflərini aşkara çıxarsa da, bunlar yenə də ənənəvi sinfi-konfrontasiya dəyərləndirmələrindən uzaqlaşa bilmir və onun yetərincə ümumiləşdirilmiş tərəfini verə bilmir.

Fikrimizcə, bu vacib anlayışın kompleks tərifini hazırlamaq yalnız təhlil vasitəsilə, dəyişməkdə olan müasir dünyanın gercəkliklərinin nəzərə alınması yolu ilə mümkündür.

Belə ki, siyasi rejim şəraitində ölkədə demokratiya və siyasi azadlıq dərəcəsinin inkişaf istiqamətini və səviyyəsini əks etdirən hüquqi qayda təşəkkül tapır. Başqa sözlə, siyasi rejim əhəmiyyətli dərəcədə funksional xarakter daşıyır, daha az formallaşdırılıb və dövlətdə qüvvələrin nisbətində hər bir dəyişikliklərə birbaşa reaksiya verir. Daha sabit idarəçilik və siyasi-ərazi quruluşu formalarından fərqli olaraq o, özünün ümumi modeli çərçivəsində olduqca asan və çevik yerdəyişmələrə, mühüm forma dəyişmələrinə məruz qalır ki, bununla da əhalinin real həyatına, vətəndaşların təcrübədə öz hüquq və azadlıqlarını həyata keçirmə imkanlarına böyük təsir göstərir.

Dövlət formasının və onun digər iki ünsürünün (dövlət idarəçilik və siyasi-ərazi formaları) kompleks şəkildə başa düşülməsi üçün siyasi rejimin xüsusi əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, yalnız konkret siyasi rejim şəraitində həm idarəçilik, həm də siyasi-ərazi quruluşu mövcud ola və adekvat qiymətləndirilə bilər. Bütün bu üç ünsür birlikdə götürüldükdə hər bir konkret dövlətin istənilən tarixi inkişaf mərhələsində ümumi səciyyəsini verir. Rejim, həmçinin dövlətin daxili və xarici siyasətinin dinamikasına da təsir göstərir.

Fikrimizcə, iki qohum anlayışın - siyasi və dövlət rejiminin müəyyən edilməsinin məqsədəuyğunluğu qabarıq şəkildə üzə çıxır. Sonuncunu bəzən dövlət-siyasi rejimi də adlandırırlar. Lakin bu anlayışların mahiyyətinin dərk edilməsi dəqiqlik tələb edir. Dövlət rejimi daha dar anlayış olub özündə yalnız dövlət aparatının siyasi hakimiyyəti həyata keçirməsi metodlarını birləşdirərək dövlət mexanizmi ilə məhdudlaşdırılır. Siyasi rejim anlayışı isə «dövlət rejimi» anlayışından daha geniş olub, özündə sonuncunu bütövlükdə ehtiva edir.

Siyasi rejimin əsası dövlət rejimi olsa da, buraya həm də cəmiyyətin siyasi həyatının digər subyektlərinin də fəaliyyəti daxildir. Deməli, dövlət rejimi dövlət mexanizminin fəaliyyəti ilə bağlı olduğu halda, siyasi rejim cəmiyyətin siyasi sisteminin ünsürlərinin və təzahürlərinin gerçəklikdə bütün müxtəlifliklərini əhatə edir. Öz xüsusi əhəmiyyətinə görə dövlət hakimiyyət münasibətləri siyasi rejimin formalaşmasında hakim rol oynayır.

Fikrimizcə, hər bir ölkənin real mövcud olan siyasi rejimi permanent daxili dinamikaya malikdir: o, zamanla, hansı dərəcədəsə (xüsusən federativ dövlətlərdə) məkanla dəyişkən olaraq, hər bir dövlət üçün konkret, fərdi xarakter daşıyır, öz spesifikliyi ilə heç vaxt yalnız avtoritar və ya yalnız demokratik modeldən ibarət olmur, eyni zamanda bu və ya digər modelin təcrübədə özünün təmiz və ya «ideal» şəkildə mövcud olmur. Siyasi rejim «bir çox tərkib hissələrin müəyyən nəticəsi»(3) olduğundan rejimdə həmin qüvvələr nisbətinin dəyişməsi ilə öz fəaliyyətində həm gücə, həm də güzəştlərə, liberalizm metoduna söykənən müxtəlif dövlət institutları və orqanlarının sıx qarşılıqlı taktiki metodların, üsulların tətbiqi nisbəti və forması dəyişir. Buna görə də hər bir konkret rejim adətən özündə (ən gözlənilməz uyğunlaşmada) aralarındakı sərhədin olduqca şərti olduğu, həm avtoritarizmin, həm də demok-

ratiyanın müxtəlif ünsürlərini birləşdirir.

Siyasi rejim həm mütəşəkkil – dövləti və onların «yuxarıdan» tənzimlədiyi hərəkət və proseslər, həm də müxalifətin təşkil etdiyi əks təsir, «aşağıdan» idarə olunanların və kortəbii siyasi qüvvələr və hərəkatların maraqlarının qorunması və razılaşdırılması mexanizmləri nəticəsində formalaşır. Deməli, siyasi sistem institutları tərəfindən ictimai münasibətlərin normativ tənzimlənməsi ilə təbəqələr, qruplar, vətəndaşların ictimai özünütənzimlənməsinin uyğunlaşdırılması baş verir. Yekun nəticədə siyasi rejim cəmiyyətin siyasi sisteminin fəaliyyətinin spesifik özünütənzimləyən modeli kimi çıxış edir. Bu model hər bir konkret dövlətin mövcudluğunun daxili və xarici şəraitlərinə uyğun quraraq, onların müdafiəsinə, saxlanmasına və inkişafına yönəldilmişdir.

Əgər bu şərtlər yetərincə nəzərə alınırsa, «yuxarı» və «aşağı» qüvvələrin qarşılıqlı məqbul saydığı kompromis formada təşəkkül tapırsa, yaxud siyasi mübarizədə qüvvələrin nisbəti müəyyən qədər sabitdirsə və ya «yuxarılar» «aşağılar» üzərində uzunmüddətli üstünlüyə malikdirsə, siyasi rejimin müəyyən stabillik dərəcəsi ola bilər. Siyasi rejimin sabitliyi, hakim elitanın əlində olan praktiki idarəçilik vasitələri onların bir sıra hallarda təmsil etdikləri əhali təbəqələri, qruplarının maraqları ilə onlara zidd ictimai təbəqələr arasında ağlabatan kompromis tapa bilmək qabiliyyətindən asılıdır. Bu zaman onlar ölkə əhalisinin əksəriyyətini qane edən həyat şəraiti və siyasi atmosferi təmin etməlidir.

Dövlət-hüquqi norma və institutlar siyasi rejimin dövlət tərəfindən sanksiyalaşdırılan normativ institusion çərçivələrini yaradırlar. Ancaq dövlət orqanları, siyasi partiyalar, ictimai təşkilatlar və vətəndaşlar öz praktiki hərəkətləri ilə arabir rejimin bu və ya digər tərəfə təkamülünün zəminini yaradaraq bu çərçivədən kənara çıxa bilər.

Bu təkamül siyasi rejimin mahiyyət cəhətlərini müəyyən edən institut və mexanizmlərin sayının artırılıb – azaldılması yolu ilə, yaxud onların eyni siyasi «dəyərinin» və ya keyfiyyət səciyyələrinin, eyni zamanda aralarındakı əlaqə və münasibətlərin dəyişməsi vasitəsilə baş verə bilər. Real həyatda labüd baş verənləri nəzərə alaraq siyasi rejimin dəyişməsi bütün bu xətlər üzrə eyni zamanda və kompleks şəkildə baş verir. Siyasi rejimin düşünülmüş dəyişikliyi, deformasiyası, yeni formaya keçməsi qanunların qəbul edilməsi vasitəsilə, yaxud icra orqanları tərəfindən onların tətbiqi təcrübəsinin dəyişməsi ilə baş verə bilər.

Bütün bu proseslərə həm dövlət, həm də özəl, həm daxili, həm də xarici kütləvi kommunikasiya vasitələri fəal təsir göstərə bilər. Şübhəsiz, iqtisadi amillərın də siyasi rejimə təsiri əhəmiyyətli dərəcədə böyükdür.

Siyasi rejim – dövlət hakimiyyətinin həyata keçirilməsi prosesində özünütənzimləyən və eyni zamanda dövlət tərəfindən nizama salınan təhtəl sistemlərin qarşılıqlı fəaliyyətində təşəkkül tapan real ictimai münasibətlərin məcmusunu əks etdirən kompleks sistem əmələ gətirən anlayışdır. Bu təhtəl sistemlərə: metodlar təhtəl sistemi; orqan və institutların təhtəl sistemi; rejimin

sabitliyinin təminatı təhtəl sistemi aiddir.

Bu təhtəl sistemlər birlikdə götürüldükdə siyasi rejim sistemini əmələ gətirirlər. Lakin real həyatda siyasi rejim sistemi bu cür sadələşdirilmiş sxematik şəkildə fəaliyyət göstərmir. Xüsusən müasir zamanda bu qeyri-mümkündür. Cəmiyyətin sosial strukturunun dəyişməsi, mülkiyyət formalarının təkamülü və digər proseslər bu sxemə müdaxilə edir. Nəticədə praktik olaraq bütün nəzərdən keçirilən təhtəl sistemlərin ünsürləri arasında qarşılıqlı təsir, fəaliyyət və kompromis komponentləri daha da genişlənməkdədir. Bu komponentlər təkcə bir qrupa xas olmayan ümumdemokratik, ümummilli, ümumbəşəri və praqmatik məqsədlərdən irəli gəlir.

Siyasi rejim mühiti zamanla dəyişən rejimin formalaşması və təkamülünə böyük təsir göstərən sosial-iqtisadi, mədəni-mənəvi, etno-psixoloji, daxili və xarici siyasi şəraitdir. O, sanki iki əsas aspektə malikdir.

İlk növbədə, bu, adətən onun məzmununu müəyyən edən daxili mühitdir (dövlətdaxili xarakterli kompleks amillər). İkincisi, bir qayda olaraq, köməkçi amil – siyasi rejimə xarici (beynəlxalq) amillərin, hadisələrin, qlobal və regional təsirlərin artması ilə bağlı olan xarici mühitdir. Son illər xarici amillərın təsirinin durmadan yüksəlməsi müşahidə edilir.

Daxili və xarici mühitlər siyasi rejim təzahürlərinin mahiyyəti və müxtəlifliklərinə təsir göstərməklə bərabər, öz növbəsində onun tərəfindən olduqca fəal əks təsirə məruz qalır. Belə ki, o, dövlət təsisatlarının, partiyaların, ictimai təşkilatların fəaliyyətinin siyasi mühitini yaradır. Ölkədə həyata keçirilən xarici siyasətə təsir göstərir. O, həm çoxmilyonluq xalqın, həm də ayrılıqda hər bir vətəndaşın siyasi-hüquqi düşüncəsini və sosial psixologiyasını formalaşdırır. Siyasi rejim dövlətin dünya birliyində ümumi imici və beynəlxalq nüfuzu ilə bağlıdır.

Siyasi rejim mühiti onun inkişafını müəyyən edən obyektiv amillərin məcmusudur. Subyektiv amillər də siyasi rejimin təkamülünə az təsir göstərmir. Buraya ölkənin ali rəhbərliyinin siyasi, ideoloji, fəlsəfi, dini və digər baxışları, dövlət rəhbərlərinin fərdi insani keyfiyyətləri və s. aiddir.

Siyasi rejim cəmiyyətin əxlaqi, mənəvi və dünyagörüşü özülləri ilə də sıx bağlıdır. Belə ki, demokratik rejimin daha geniş və müxtəlif mənəvi təbiəti vicdan, əqidə, söz azadlığı, siyasi plüralizm və s. kimi dəyərlərin tanınmasını nəzərdə tutur.

Avtoritar rejimin əxlaqi təbiəti isə əksinə yuxarıdan yeridilən, şəxsiyyətin mənəvi və mədəni müstəqilliyini və fikir plüralizmini boğan, cəmiyyət və hüquq üzərində bölünməz hakimiyyəti olan vahid ideologiyadır. Bu ideologiya dövlətin gücü ilə birləşərək onun repressiv orqanları tərəfindən təmin edilir və hətta vətəndaşların düşüncəsini və zövqünü də eyniləşdirməyə cəhd edir. Avtoritar və xüsusən totalitar dövlət fəal və birbaşa şəkildə şəxsiyyətin ona məxsus olmayan daxili, mənəvi həyatına müdaxilə edir.

Əhəmiyyətli dərəcədə dövlət orqanlarının fəaliyyətinin

конкret məzmununu müəyyən edərəк siyasi rejim müasir cəmiyyətin «özünütənzimlənməsinin» dövlət və bütün siyasi mexanizminin mühüm tərкib hissəsi кimi çıxış edir, onun müəyyən çeviкliyini təmin edir.

Siyasi rejim cəmiyyətin inкişafında fövqəladə dərəcədə böyüк əhəmiyyətə maliкdir. Onun sosial təyinatı aşağıdaкılardan ibarətdir:

- ölкənin qarşısında duran strateji məqsədlərə nail olunmAsına, sosial potensialın səfərbər edilməsinə şərait yaratmaq, dövlətin daxili vəziyyətini stabilləşdirərəк, idarə olunan və dinamiк sosial struкtur yaratmaq;

- idarəçiliк və haкimiyyət orqanlarının optimal iş rejimini təmin etməк, onların daimi qarşılıqlı təsirinə və əhali ilə əкs əlaqəsinə xidmət etməк;

- pozitiv xarici siyasi şəraiti təmin etməк, son nəticədə isə bütövlüкdə ictimai-siyasi sistemin səmərəli idarəçiliyi və özünütənzimlənməsini təmin etməк.

Siyasi rejim, sanкi dövlət və cəmiyyət arasında özünəməxsus haкimiyyət bölgüsüdür. Bu bölgü özünün daha demoкratiк formalarında onlar arasında sosial sabitliyi təmin etməк məqsədilə balans axtarılmasına yönəlmiş tarazlaşdırma və qarşı qoyma sisteminin formalaşdırılmasına cəhdi nəzərdə tutur.

Avtoritar rejim şəraitində ictimai elementin «qeyri-demoкratiк» element tərəfindən udulmasının səbəblərinə əhalinin çoxluğunun sosial-iqtisadi, hüquqi və mədəni geriliyini, onun milli, dini qruplar üzrə parçalanmasını, həmçinin cəmiyyətin inкişafında sosial gərginliк dövrlərini aid etməк lazımdır. Siyasi haкimiyyətlə sivil cəmiyyəti arasındaкı münasibətlərdə dövlət üstün olduqda o, ictimai və özəl mənafelərin boğulması hesabına ümumi marağı ümummilli marağa çevirir. Bununla da dövlət marağının monizmi sivil cəmiyyətin plüralizmini özünün xüsusi çəкisi ilə əzir (4).

Demoкratiк rejim sivil cəmiyyətin кonsolidasiyasının olduqca yüкsəк dərəcəsini nəzərdə tutur. Bu isə əhalinin əкsəriyyətinin siyasi, hüquqi mədəniyyətinin və özünüdərкinin müəyyən inкişaf səviyyəsi olmadan qeyri-mümкündür.

Fiкrimizcə, yalnız demoкratiк rejim cəmiyyətdə nisbi uzlaşma vəziyyəti yarada bilər. Bu halda rejimin özündə onun ümumdemoкratiк və praqmatiк xaraкterli dövlət-təşкilati və sosial tənzimləyici funкsiyaları əhəmiyyətli rol oynayır. Siyasi rejimin bu cür vəziyyəti avtoritar rejimin hər hansı formalarından daha çox sosial tərəqqi tələbatlarına cavab verir, çünкi şəxsiyyətin cəmiyyətdə varlığı və inкişafının daha insani şərtlərini təmin edir.

Hüquqi demoкratiк dövlətə doğru istiqamətdə dövlətin və cəmiyyətin maraqlarının nisbətində vurğular dəyişir və «dövlət» mənafeləri daha artıq dar qrupların deyil, bütövlüкdə cəmiyyətin mənafelərini əкs etdirməyə başlayır. Bu zaman rejim nə qədər demoкratiк olarsa, onda ictimai tərкib bir o qədər böyüк rol oynamalıdır. Yetərincə inкişaf etmiş sosial, hüquqi, demoкratiк cəmiyyətdə o, güman кi, harmoniк, qızıl tarazlığa nail olmağa səy

göstərir, özünütənzimləyən başlanğıclar gücləndikcə isə ictimai özünüidarəetmənin artmaqda olan rolu ilə prinsipial yeni siyasi rejimin forma və məzmununu daha çox müəyyən edir. İnkişafın bu cür məntiqi dövlətə cəmiyyətin üzərində duran orqandan bütövlükdə ona tabe olan orqana çevrilməsinə şərait yaradır.

Demokratik siyasi rejim idarə edənlərlə idarə olunanlar arasında özünəməxsus ictimai «müqaviləyə» söykənir. Bu cür «müqavilə» müəyyən dərəcədə konstitusiya və qanunvericilikdə əks etdirilərək dövlət orqanlarının praktik fəaliyyətində realizə edilir. Demokratik rejim və bu ictimai müqavilənin iqtisadi və siyasi bazası fərdlərin və əhali qruplarının mülkiyyət formalarının və siyasi fəaliyyətlərinin müxtəlifliyini ehtiva edir. Buna görə də dövlət tərəfindən nizama salınan fərdlərin iqtisadi və siyasi fəaliyyət dairəsi nə qədər geniş olarsa, cəmiyyət və siyasi rejim bir o qədər demokratik, sivil cəmiyyətin dairəsi isə daha geniş olur.

Siyasi rejim və hüquqi dövlətin nisbəti məsələsi də böyük maraq doğurur. Buna qısa cavab vermək üçün kompleks anlayış olan hüquqi dövlətin tərkib ünsürlərinin təhlilinə müraciət etmək lazımdır.

Ətraflı sadalamadan onların aşağıdakı əsaslarını qeyd etmək olar:

1) qanunun siyasi məqsədəuyğunluq üzərində aliliyi. Buradan insan hüquqlarının prioriteti qaynaqlanır;
2) şəxsiyyətin dövlət və dövlətin şəxsiyyət qarşısında məsuliyyəti və hüquqdan qaynaqlanan hüquq və vəzifələrinin məcmusu;
3) hakimiyyətlərin bölgüsü və ondan irəli gələn məhkəmənin müstəqilliyi prinsipinə riayət və hörmət edilməsi;
4) konstitusiya nəzarəti;
5) cəmiyyətdə iqtisadi-siyasi və ideoloji plüralizmin mövcudluğu.

Beləliklə, hüquqi dövlət və siyasi rejimin cəhətlərinin nisbətini araşdıraraq, hər bir demokratik cəmiyyətdə bu və ya digər dərəcədə hüquqi dövlətin əsas cəhətlərin mövcud olması zəruridir.

## ƏDƏBİYYAT


1. Чиркин В.Е. Теоретические проблемы политического режима в странах социалистической ориентации / Государство и право в развивающихся странах. М., 1976, с. 6-7.
2. Тененбаум В.О. К методологии исследования политических систем / Развитие политических систем в современном мире. М., 1981, с.18-19.
3. Основы теории политической системы / Под ред. В.Е.Чиркина. М., 1985, с. 104.
4. Поздняков З.А. Национальное и интернациональное во внешней политике // Международная жизнь, 1989, № 5, с. 10-11.


## К ВОПРОСУ О ПОНЯТИИ ПОЛИТИЧЕСКОГО РЕЖИМА


**М.Р.ГУЛИЕВ**


**АННОТАЦИЯ**

В представленной статье в первую очередь анализируются существующие в правовой литературе подходы относительно понятия «правовой режим»; подчеркивается необходимость всесторонней разработки данного понятия в свете утверждения в Республике независимой государственной власти. Кроме того, политический режим характеризуется как наиболее подвижный элемент формы государства и один из определяющих факторов природы государства, его демократизма и направлений развития.